*Azərbaycan Respublikası Dövlət*
*Gömrük Komitəsi Sədrinin*
*108/120 " nömrəli, "22" "09"*
*2014-cü il tarixli Sərəncamına əlavə*

# Gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi üzrə struktur bölmələrdə yoxlama qruplarının fəaliyyətini tənzimləyən Texnoloji Sxem

## 1. Ümumi müddəalar

1.1. "Gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi üzrə struktur bölmələrdə yoxlama qruplarının fəaliyyətini tənzimləyən Texnoloji Sxem" (bundan sonra Texnoloji Sxem) Azərbaycan Respublikası Gömrük Məcəlləsinin (bundan sonra Gömrük Məcəlləsi) 92.2.1 və 92.2.6. maddələrinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 yanvar 2013-cü il tarixli 7 nömrəli Qərarı ilə təsdiq olunmuş "Gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları"na və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin "Malların və nəqliyyat vasitələrinin yoxlanılması və onlar üzərində baxış keçirilməsi sahəsində nazarətin gücləndirilməsi" haqqında 14 avqust 2014-cü il tarixli, 105 nömrəli Sərəncamının 4-cü hissəsinin tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Texnoloji Sxem gömrük nəzarəti altında olan mal və nəqliyyat vasitələri üzərində gömrük baxışı və yoxlamasını həyata keçirən gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən həyata keçirilən hərəkətlərin ardıcıllığını tənzimləyir.

1.3. Gömrük baxışı və yoxlamasının aparılması məqsədi ilə gömrük orqanlarında bu məsələlər üzrə məsul olan vəzifəli şəxslər müəyyən edilir.

## 2. Gömrük baxışı və yoxlamasının aparılması

2.1. Gömrük nəzarəti altında olan mallar və nəqliyyat vasitələrinin təqdim olunmuş sənədlər əsasında eyniləşdirilməsinin aparılması, gizli saxlanc yerlərinin müəyyən edilməsi və gömrük qanunvericiliyinin tələblərinə riayət edilməsinin yoxlanılması məqsədilə gömrük baxışı həyata keçirilir.

2.2. Gömrük baxışı zamanı gömrük nəzarəti altında olan mallar və nəqliyyat vasitələri üzərində vizual müayinə aparılır.

2.3. Texnoloji Sxemin 2.2. bəndinin tələbləri üzrə aşağıdakılar yerinə yetirilir:

2.3.1. nəqliyyat vasitələrinin daşınma şərtlərinə uyğunluğunun nəzərdən keçirilməsi;

2.3.2 nəqliyyat vasitələrinin kabinalarına və digər hissələrinə baxış;

2.3.3 malların, müşayət olunan baqajın və əşyaların gömrük sərhədindən keçirilmə tələbinə uyğunluğunun yoxlanılması;

2.3.4. vurulmuş gömrük eyniləşdirmə vasitələrinin salamatlılığı və uyğunluğu;

2.3.5. faktiki mal və nəqliyyat vasitələrinin sənədlərdə göstərilən məlumatlarla uyğunluğu;

2.3.6. malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş tələblərin yerinə yetirilməsi.

2.4. Gömrük baxışı zamanı nəqliyyat vasitəsi və ya onun yük hissəsində, daşınar baqajın içərisində gömrük qanunvericiliyinin tələblərinin pozulmasına gətirib çıxara biləcək hər hansı əşyanın, predmetin mövcud olmasına şübhə yarandığı halda, eləcə də konkret pozuntu ilə əlaqədar fakt aşkar edildikdə ətraflı olaraq gömrük yoxlamasının həyata keçirilməsinə dair qərar qəbul edilir.

2.5. Gömrük yoxlamasının həyata keçirilməsinə dair qərar gömrük baxışı və yoxlamasının aparılmasına məsul olan struktur bölmənin rəhbəri, o olmadıqda isə vəzifə təlimatına uyğun olaraq digər şəxs tərəfindən qəbul edilir.

2.6. Gömrük yoxlanılmasının aparılması üçün mallar və nəqliyyat vasitələri, o cümlədən onlara dair sənədlər xüsusi yoxlama yerlərinə ünvanlanır və bu cür yoxlamaların həyata keçirliməsi üzrə məsul olan gömrük orqanının vəzifəli şəxsinə təqdim olunur.

2.7. Gömrük yoxlaması zamanı aşağıdakı işlər aparılır:

2.7.1. malların qablaşdırılmasının, nəqliyyat vasitələrinin yük hissələrinin və daşınar baqajın açılmasının tələb edilməsi;

2.7.2. malların çəkisinin müəyyənləşdirilməsi, ölçülməsi və sayılması;

2.7.3. malların və nəqliyyat vasitələrinin fiziki yoxlanılması;

2.7.4. zəruri olan hallarda şəxsi yoxlamanın həyata keçirilməsi;

2.7.5. Texnoloji Sxemin 2.7.4. yarımbəndində göstərilən tədbirin yerinə yetirilməsi vaxtı şəxsə məsuliyyətinin izah edilməsi;

2.7.6. zəruri texniki nəzarət vasitələrindən istifadə edilməsi;

2.8. Gömrük yoxlaması zamanı zəruri olduqda əlavə olaraq aşağıdakılar həyata keçirilir:

2.8.1. kinoloji xidmətin nümayəndələrinin cəlb edilməsi;

2.8.2. malların labarator müayinəsinin aparılması üçün prob və nümunələrin götürülməsi;

2.8.3. ekspert və mütəxəssislərin dəvət olunması;

2.8.4. gömrük məqsədləri üçün tələb olunan digər zəruri tədbirlər.

## 3. Gömrük yoxlamasının nəticələri

3.1. Gömrük yoxlamasının nəticələri üzrə "Gömrük yoxlamasının nəticəsinə dair Hesabat" tərtib edilir. (Texnoloji Sxemə 1 saylı Əlavə)

3.2. Gömrük yoxlamasının nəticəsi üzrə gömrük qanunvericiliyinin tələblərinin pozulması halları aşkar edildikdə gömrük yoxlamasını aparmış şəxs tərəfindən Gömrük

Məcəlləsinin 82.6, 92.2, 92.2.1, 92.2.2 və 99-cu maddələrinə əsasən protokol tərtib edilir.

## 4. Gömrük yoxlaması üzrə digər struktur bölmələrlə əlaqələndirilmiş fəaliyyət

4.1. Komitənin Mərkəzi Aparatı tərəfindən verilmiş tapşırıq və ya digər gömrük idarəsinin, eləcə də gömrük idarəsinin daxilində digər struktur bölmənin vəzifəli şəxsinin operativ müraciəti olduqda malların və nəqliyyat vasitələrinin gömrük yoxlanılması keçirilir. (yazılı və ya elektron formada tərtib edilmiş Tapşırıq / Müraciət-in forması əlavə olunur)

4.2. Gömrük yoxlamasının keçirilməsi ilə əlaqədar məlumatlandırılma sisteminə müvafiq olaraq Komitənin Mərkəzi Aparatı tərəfindən verilmiş verilmiş tapşırıq və ya digər gömrük idarəsinin, eləcə də gömrük idarəsinin daxilində digər struktur bölmənin vəzifəli şəxsinin müraciəti əsasında gömrük yoxlaması keçirilir.

4.3. Texnoloji Sxemin 4.2. bəndinə uyğun daxil olan tapşırıq və müraciət əsasında gömrük yoxlamasını keçirən şəxs tərəfindən Texnoloji Sxemin 2. və 3. bəndlərində göstərilən tədbirlərin yerinə yetirilməsi təmin edilir.

4.4. Gömrük yoxlaması üzrə fəaliyyət digər struktur bölmələrlə əlaqələndirilən zaman Texnoloji Sxemin 3. bəndində göstərilən gömrük yoxlamasının nəticəsinə dair Hesabatın surəti gömrük yoxlamasının aparılması ilə əlaqədar tapşırıq vermiş və ya müraciət edən tərəfə göndərilir.

## 5. Gömrük yoxlamasının həyata keçirilməsi üçün müəyyən olunmuş şəxslər tərəfindən yerinə yetirilməli olan əlavə tədbirlər

5.1. Gömrük yoxlamasının həyata keçirilməsi üçün müəyyən olunmuş şəxs tərəfindən əlavə olaraq aşağıdakı tədbirlərin yerinə yetirilməsi təmin edilir:

5.1.1. zəruri texniki təhlükəsizlik tədbirlərinə riayət edilməsi;

5.1.2. malların gömrük yoxlaması zamanı nəqliyyat vasitələrinin yük bölmələrinə vurulmuş eyniləşdirmə vasitələri (plomb, stiker, və.s) çıxarıldıqda malların salamatlılığının təmin edilməsi məqsədilə yeni eyniləşdirmə vasitələrinin vurulması;

5.1.3. mallara və nəqliyyat vasitələrinə labarator müayinə təyin olduğu təqdirdə həmin müayinənin nəticələri üzrə təqdim olunmuş sənədlərin (ekspertiza aktı) gömrük yoxlamasının həyata keçirilməsi üzrə tərtib olunmuş sənədlərə əlavə edilməsi;

5.1.4. mütəxəssis və ekspertin dəvət edildiyi halda, onlar tərəfindən tərtib olunmuş sənədlərin (rəy, əsaslandırma və.s) Texnoloji sxemin 3., 5.1.1. və 5.1.4. bəndlərində göstərilən sənədlərlə birlikdə işdə saxlanılması;

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

______________________________________________

## Gömrük yoxlamasının nəticəsinə dair

## Hesabat

______________________-nin gömrük baxışı və yoxlanılmasının həyata keçirilməsi üçün
(gömrük oranının adı)

müəyyən olunmuş ____________________tərəfindən ______________________________
(soyadı, adı, atasının adı və vəzifəsi) (yoxlamanın predmeti barədə məlumatlar,

______________________________________ gömrük yoxlaması həyata keçirildi.
yoxlamanın həyata keçirildiyi yer)

Gömrük qanunvericiliyinin tələblərinin pozulması halları aşkar edildi. ☐* ______________
(protokolun nömrəsi)

Gömrük qanunvericiliyinin tələbərinin pozulması halları aşkar edilmədi. ☐

Gömrük orqanının vəzifəli şəxslərinin qeydləri**______________________________

______________________________________________

______________________________________________

______________________________________________

İmza: ______________________________
(gömrük yoxlamasını həyata keçirən şəxs)

Tarix: "___" _______ 201_ cü il

*Qeyd: (*) Gömrük qanunvericiliyinin pozulması hallarının aşkar edilib - edilmədiyini göstərmək məqsədilə simvolun daxilinə müvafiq qaydada (√) işarəsi qoyulur. Gömrük qanunvericiliyinin pozulması halları müəyyən edildikdə gömrük nəzarət formasının tətbiqi üzrə tərtib edilmiş protokolun nömrəsi qeyd olunur.)*

*(**) Malların gömrük yoxlaması zamanı nəqliyyat vasitələrinin yük bölmələrinə vurulmuş eyniləşdirmə vasitələri (plomb, stiker, və.s) çıxarıldıqda yeni vurulmuş eyniləşdirmə vasitələri barədə gömrük orqanlarının vəzifəli şəxslərinin qeydləri göstərilir.*

*Gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi üzrə yoxlama qruplarının fəaliyyətini tənzimləyən Texnoloji Sxemə 2 saylı əlavə*

**Gömrük Yoxlamasının keçirilməsinə dair**

**Tapşırıq*** ☐

(gömrük yoxlamasının aparılması üçün tapşırıq verən Komitənin Mərkəzi Aparatı və gömrük idarəsi, gömrük idarəsinin daxilində digər struktur bölmənin vəzifəli şəxsi)

**Müraciət**** ☐

(Tapşırığın və ya müraciətin ünvanlandığı struktur bölmə)

______________________________

(gömrük yoxlaması keçiriləcək mallar və nəqliyyat vasitələri barədə məlumat)

Qeyd:______________________________

(Qeydləri)

Tarix: ______________

İmza:______________

(*) və (**) tərtib edilərkən doldurulur.